# Namaz qıldığınız zaman səflərinizi düz tutun sonra sizdən biri sizə imam olsun. İmam təkbir etdiyi zaman siz də təkbir edin

Hittan bin Abdullah ər-Rəqqaşi belə demişdir: Əbu Musa əl-Əşari (Allah ondan razı olsun) ilə birlikdə namaz qıldım. Oturuş əsnasında camaatdan bir kişi: “Namaz, yaxşılıq və zəkatla birlikdə iqrar olundu” dedi. Əbu Musa namazı qılıb qurtardıqdan sonra: “Sizdən bu sözü söyləyən kim idi?” diyə soruşdu. Camaat susdu. O yenədə: “Sizdən bu sözü söyləyən kim idi?” diyə təkrar soruşdu. Camaat yenədə susdu. O da: “Ola bilsin o sözü söyləyən sənsən ey Hittan!” dedi. Hittan da: “Mən söyləmədim" dedi. Hittan deyir ki: bundan dolayı məni danlayacağından qorxdum. Bu zaman camaatdan bir kişi: “Onu mən söylədim, ancaq bunu söylərkən niyyətim xeyirdən başqa bir şey deyildir” dedi. Əbu Musa da: “Məgər siz namazınızda nə söyləyəcəyinizi bilmirsinizmi? dedi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə bir xütbə verdi və o xütbədə bizə sünnəmizi bəyan etdi və namazımızı bizə öyrətdi və belə buyurdu: «Namaz qıldığınız zaman səflərinizi düz tutun sonra sizdən biri sizə imam olsun. İmam təkbir etdiyi zaman siz də təkbir edin» "Ğayril-məğdubi aleyhim valad-dallin” (Bizi doğru yola yönəlt! Nemət bəxş etdiyin kimsələrin yoluna, qəzəbə uğramışların və azmışların (yoluna) yox!) [Fatihə surəsi: 7] dediyi zaman siz: “Əmin” deyin ki, Allah duanıza cavab versin. İmam təkbir edib, rükuya getdiyi zaman siz də təkbir edin və rükuya gedin. Çünki imam sizdən öncə rüku edər və sizdən öncə rükudan qalxar». Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: «O, bu şəkildədir. İmam: “Səmi Allahu limən həmidəh” dediyi zaman: “Allahummə Rabbənə va ləkə-l-həmd” deyin. Allah sizi eşidər. Uca Allah Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) dili ilə “Səmiallahu limən həmidəh” (Allah Ona həmd edəni eşitdi!)» buyurmuşdur. İmam təkbir edib, səcdəyə getdiyi zaman siz də təkbir edib, səcdəyə gedin. Çünki imam sizdən öncə səcdəyə gedir və sizdən öncə səcdədən qalxır.» Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: «O da, bu şəkildədir». İmam oturduğu zaman sizin ilk sözünüz bu olsun: «Ət-Təhiyyatu, ət-Tayyibətu, əs-Saləvatu lilləhi, əs-Sələmu aleykə əyyuhən-nəbiyyu va rahmətullahi va bərakətuhu, əs-Sələmu aleynə va alə ibədil-ləhis-salihin. Əşhədu əllə iləhə illəllahu va əşhədu ənnə Muhammədən abduhu va rasuluhu».
[Səhih] [Muslim rəvayət etdi]

Səhabələrdən olan Əbu Musa əl-Əşari (Allah ondan razı olsun) bir namaz qıldı. Təşəhhüdə oturduğları zaman arxasındakı camaatdan bir kişi: “Quranda, namaz, yaxşılıq və zəkatla birlikdə zikir edildi" dedi. Əbu Musa (Allah ondan razı olsun) namazı qılıb qutardıqdan sonra camaata tərəf döndü və kimin: “Quranda, namaz, yaxşılıq və zəkatla birlikdə zikir edildi"

dediyini soruşdu. Camaat susdu və kimsə ona cavab vermədi. Bunun üzərinə o: “Bu sözü hansınız söylədi?” diyə təkrarən soruşdu. Camaat yenə də susub kimsə cavab vermədikdə, Əbu Musa (Allah ondan razı olsun): “Ola bilsin bunu söyləyən sənsən ey Hittan!” dedi. Əbu Musa (Allah ondan razı olsun) Hittanın cəsarəti, özünə yaxın olması və aralarındakı qohumluq bağının olmasından dolayı onu bu şəkildə itham etməsi ilə sözün həqiqi sahibinin ortaya çıxıb etiraf etməsini istəmişdir. Hittan da: “Mən söyləmədim" deyərək bunu inkar etdi. Hittan deyir ki: "Əbu Musanın bundan dolayı məni danlayacağından qorxdum". Bu zaman camaatdan bir kişi: “Onu mən söylədim, ancaq bunu söylərkən niyyətim xeyirdən başqa bir şey deyildir” dedi. Əbu Musa (Allah ondan razı olsun) da ona öyrətmək məqsədi ilə: “Siz namazınızda nə söyləyəcəyinizi bilmirsinizmi?" diyərək kişiyə təəccüb etdi. Sonra Əbu Musa, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) bir gün onlara bir xütbə verdiyini, onlara şəriətlərini və namazlarını öyrətdiyini xəbər verərək Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) onlara belə buyurduğunu dedi: Namaz qıldığınız zaman səflərinizi düz tutun sonra sizdən biri sizə imam olsun. İmam, Təkbiratul-ehram etdiyi zaman siz də onun kimi təkbiratul-ehram edin. Fatihə surəsini oxuyub: «Ğayril-məğdubi aleyhim valad-dallin” (Bizi doğru yola yönəlt! Nemət bəxş etdiyin kimsələrin yoluna, qəzəbə uğramışların və azmışların (yoluna) yox!) [Fatihə surəsi: 7] ayəsinə çatdığı zaman: “Əmin” deyin. Əgər belə desəniz, Uca Allah duanıza cavab verər. İmam təkbir edib, rükuya getdiyi zaman sizdə təkbir edib rükuya gedin. İmam sizdən öncə rüku edir və sizdən öncə rükudan qalxır. Elə isə onu qabaqlamayın. Çünki rükuya gedərkən imamın sizdən öncə rükuya getməsi, rükudan qalxarkən siz gecikdiyiniz zamanı əvəz edər. Rükuya gedərkən azca gecikməniz, qalxarkən gec qalxmanızı əvəz edər. Beləcə də sizin rüku miqdarınız ilə imamın rüku miqdarı bərabər olur. İmam: "Səmi Allahu limən həmidəh” dediyi zaman: “Siz: Allahummə Rabbənə va ləkəl-həmd” deyin. Camaat bunu söyləyərsə Allah onların duasını və sözünü eşidər. Uca Allah, Peyğəmbərinin (Allahın salavatı və salamı onun üzərinə olsun) dili ilə Allahın Ona həmd edən qulunu eşitdiyini xəbər vermişdir. Sonra imam təkbir edib səcdəyə getdiyi zaman camaat da təkbir edib səcdəyə gedir. İmam camaatdan öncə səcdəyə gedir və səcdədən qalxır. Beləcə də camaatın səcdə miqdarı ilə imamın səcdə miqdarı bərabər olur. Təşəhhüd duasını oxumaq üçün oturduğu zaman namaz qılan kimsə ilk olaraq: “Ət-Təhiyyatu, ət-Tayyibətu, əs-Saləvatu lillahi" Mülk, əbədilik və əzəmət Uca Allahın haqqıdır. Eyni şəkildə beş vaxt namaz da Uca Allah üçündür. "əs-Sələmu aleykə əyyuhən-nəbiyyu va rahmətullahi va bərakətuhu, əs-Sələmu aleynə va alə ibədil-ləhis-salihin". Hər növ ayıb, naqislik, əksiklikdən və fitnə-fəsaddan salamat olmaq üçün Uca Allaha dua edin. Birinci Peyğəmbərimiz Muhamməddə (Allahın salavatı və salamı onun üzərinə olsun) sonra da özümüzə daha sonra isə Uca Allahın və qullarının haqqını yerinə yetirən saleh qullarına salam veririk. Sonra da Uca Allahdan başqa ibadətə haqqı olan haqq məbud olmadığına və Muhammədin (Allahın salavatı və salamı onun üzərinə olsun) Allahın qulu və rəsulu olduğuna şahidlik edirik.

https://sunnah.global/hadeeth/az/show/65097